2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 07 oktyabr 2015-ci il tarixli 51 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 09 oktyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Əkbərli İltizam Nizam oğlu oğlunun 2015-ci il oktyabrın 07-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”a uyğun olaraq tərtib edilərək müəyyən edilmiş müddətdə verildiyindən müvafiq rəy verilməsi üçün ekspert qrupunun üzvü tərəfimdən icraata qəbul edilmişdir.

Namizəd İ.N.Əkbərli müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş, həmin seçki dairəsinin dislokasiyasına aid ərazidə seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, həmin imzalardan 534-ü etibarlı hesab edilsə də əmlak barəsində təqdim etdiyi məlumatda guya özümə məxsus digər torpaq sahəsini göstərilmədiyimə görə dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq namizədliyimin qeydə alınmasından imtina edilmişdir.

Namizəd İ.N.Əkbərlinin namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 05 oktyabr 2015-ci il tarixli 24/63 saylı qərarında imtinanın əsası kimi mülkiyyəti barədə seçki sənədlərinə düzgün məlumat daxil etmədiyi göstərilməklə Seçki Məcəlləsinin 60.1-ci və 60.2.3-cü maddələrinə istinad edilmişdir. Həmin qərarın qəbul edilməsi üçün əsas olmuş işçi qrupunun rəyində göstərilir ki, namizədin əmlak barəsində təqdim etdiyi məlumatın düzgünlüyü yoxlanılarkən müəyyən edilmişdir ki, onun göstərdiyi 0,04 ha torpaq sahəsindən başqa özünə məxsus 0,06 ha həyətyanı torpaq sahəsi məlumatda göstərilməmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmişdir. O, şikayətini müdafiə etdiyini, üzürlü səbəbdən iclasda iştirak edə bilməyəcəyini bildirərək Müsavat Partiyasının səlahiyyətli nümayəndəsinin iclasa dəvət edilməsini xahiş etmişdir. Səlahiyyətli nümayəndənin iclasda iştirakı təmin edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupunun namizədin gəlirlərinin miqdarı və mənbələri, eləcə də mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumatların yoxlanılmasına dair 08 oktyabr 2015-ci il tarixli rəyində göstərilir ki, İmişli bələdiyyəsinin 02 oktyabr 2015-ci il tarixli məktubunda Əkbərli İltizam Nizam oğluna məxsus olduğu göstərilən 0,06 ha ölçüdə həyətyanı torpaq sahəsi daşınmaz əmlakın dövlət reyestrində onun adına qeydiyyatdan keçməmişdir. Belə ki, namizədin əmlak barəsində təqdim etdiyi məlumatlar qanuna uyğundur.

Namizədliyin müdafiəsi üçün təqdim edilmiş seçici imzalarının dairə seçki komissiyasında yoxlanılması nəticəsində müəyyən edilmiş etibarlı seçici imzaları namizədin qeydə alınması üçün kifayət etdiyindən və seçici imzaları mübahisə predmeti olmadığından Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən seçici imzalarının yoxlanılmasına zərurət qalmamışdır.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, namizədliyin qeydə alınmasından imtinaya dair 79 saylı İmişli seçki dairəsi dairə seçki komissiyasının 05 oktyabr 2015-ci il tarixli, 24/63 saylı qərarı ləğv edilməli, İ.N.Əkbərli həmin dairədən deputatlığa namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə   g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Əkbərli İltizam Nizam oğlunun 07 oktyabr 2015-ci il tarixli 51 saylı müraciəti təmin edilsin, dairə seçki komissiyasının 05 oktyabr 2015-ci il tarixli, 24/63 saylı qərarı ləğv edilsin.
2. 79 saylı İmişli seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Əkbərli İltizam Nizam oğlu həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınsın.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov